# FÜZULİ ADINA BEYNƏLXALQ MÜKAFATIN TƏSİS EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMİ

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə və beynəlxalq miqyasda Füzuli ilə bağlı əsərlərin mükafatlandırılması məqsədilə

**QƏRARA ALIRAM:**

1. Füzuli adına beynəlxalq mükafat təsis edilsin. Hər iki ildə bir dəfə verilmək şərti ilə hər biri 10.000 ABS dollari məbləğində iki mükafat Azərbaycan Respublikasının dövlət büdcasi hesabına verilsin.
2. Azərbaycan Respublikası Nazirlər Kabineti Füzuli adına Beynəlxalq Mükafat Komissiyasnın tərkibini və beynəlxalq mükafat haqqında əsasnaməni hazırlayıb təsdiq edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 sentyabr 1996-cı il